

**İradə Bağırova**
*Dünya tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, professor*



**Hacı Həsənov**
*Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, professor*



**Sevinc Mustafayeva**
*Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin aparıcı elmi işçisi tarix üzrə fəlsəfə doktoru*

# Şimali Azərbaycan Rusiya imperiyasının tərkibində (XIX əsrin 20-ci illərinin sonları – XX əsrin əvvəlləri)

## *İşğalçı-müstəmləkə rejiminə qarşı xalq-azadlıq mübarizəsi*

XIX əsrin ilk otuzilliyində apardığı işğalçı müharibələr nəticəsində romanovların Rusiya imperiyası Osmanlı və Qacar səltənətlərinə hərb meydanında qalib gələrək hərbi-siyasi ağalığını silah gücünə təsbit edə bilsə də, Azərbaycanın müsəlmanlarla məskunlaşmış bu böyük hissəsini nə dərhal iqtisadi cəhətdən mənimsəyə bildi, nə də istədiyi idarəçilik mexanizmini bərqərar edib, xalqın azadlıq uğrunda apardığı mübarizəyə son qoya bildi.

Hələ işğalların gedişi zamanı 1802-ci ildə baş vermiş Şəmşəddil həyəcanları 1803-1804-cü illərdə Car-Balakən və İlisu bölgələrində işğalçılara qarşı qalxmış çıxışlar, 1807-ci il Göynük üsyanı, Gəncə, Şəki, Quba, Bakı, İrəvan və b. xanlıqların rus qoşunlarına qarşı çarpışmaları, 1819-cu ilin Şəmşəddil və Qazax iğtişaşları, 1826-cı ilin möhtəşəm Ümümmüsəlman üsyanlarının sədaları səngiməmiş, işğalçılar qazandıqları hərbi-siyasi qələbəni "doyunca" bayram etməmiş xalq ən qaba və vəhşi üsullarla təsbit edilən müstəmləkə rejimindən çox tez, demək olar ki, dərhal cana gələrək yerbəyerdən silaha sarılmağa, itirilmiş azadlıq və suverenliyi bərpa etmək üçün ölüm-dirim savaşına girişməyə başladı.

1830-cu ilin əvvəllərində çar rejiminin bəzi yerli hakimlərin nisbi muxtariyyətlərini qoruyub saxlamaq barədə verdiyi vədlərini pozaraq, Car-Balakən camaatlarının formal muxtariyyətini ləğv edərək onun yerində tamamilə rus hərbi rejiminə tabe edilmiş vilayətin yaradılmasına etiraz olaraq onun əhalisi silaha sarıldı. Şeyx Şabanın başçılıq etdiyi və çox tezliklə Həmzət bəyin komandanlığı altında Dağıstandan gələn silahlı süvari müridlərin dəstəklədikləri bu üsyan gah şiddətlənərək, gah da səngiyərək 1832-ci ilədək davam etmişdi.

Hələ Car-Balakən üsyanı tam yatırılmamış 1831-ci ilin yazında sonuncu Lənkəran xanı Mirhəsən xanın 20-30 atlı ilə Qacarlar səltənəti ərazisindən, Astara çayından şimala keçməsi Şimali Azərbaycanın bu cənub bölgəsinin ayağa qalxmasına səbəb oldu. Təxminən ikiaylıq Lənkəran üsyanının gedişində Kürədək Muğan – Lənkəran bölgəsi işğalçılardan təmizləndi. Lənkəran qalasında və bəzi sahiləyaxın adalarda gizlənmiş işğalçı qüvvələrə ancaq yeni və ciddi hərbi yardımlar göstərildikdən sonra, Mirhəsən xan 1500-2000 nəfər silahlını birləşdirmiş bu üsyanın məğlubiyyətinin qaçılmaz olduğunu başa düşərək, keçmiş xanlığını tərk edib yenidən Qacarlar səltənətinin ərazisinə sığınmaq məcburiyyətində qalsa da, o hələ bir müddət də Ərdəbil, Silan və Mazandaran bölgələrindəki fəaliyyəti ilə rus müstəmləkəçilərin bu bölgələrdəki “rahatlığını” ciddi şəkildə pozmuş, müstəmləkə rejimini həyəcanlar içərisində saxlamışdır.

XIX əsrin 30-cu illərində Şimali Azərbaycanın bir çox bölgələrini bürümüş silahlı üsyanlar içərisində öz miqyası və hərbi qüvvələrinin sayına görə ən böyüyü 1837-ci il Quba üsyanı olmuşdur. Üsyan çarizmin məxsusi olaraq Azərbaycandan uzaqlaşdıraraq imperiyanın ən qərb ucqarına – Varşava general-qubernatorluğuna atılmış Müsəlman süvari alayında rotasiyalar keçirmək məqsədi ilə süvari səfərbərliyi zamanı yerli müstəmləkə orqanlarının törətdikləri qanunsuzluqlara, korrupsiyaya qarşı genişmiqyaslı iqtişaş kimi başlamışdır. 1837-1838-ci illər Quba üsyanı çox tezliklə, xüsusən də yerli müstəmləkə administrasiyası tərəfindən qubalıları sakitləşdirmək məqsədi ilə Quba komendantı Qimbut və bir neçə mahal naibinin işdən çıxarılması ilə “sakitləşib” evlərinə qayıtmış üsyançılara Qafqaz azadlıq hərəkatının lideri Şeyx Şamilin qınaq dolu məktubu yetişdikdən az sonra bu çıxış Xuluq kəndinin kəndxudası Hacı Məhəmmədin və onun yardımçısı Yarəlinin başçılığı altında on iki minədək silahlını öz bayrağı altında birləşdirən möhtəşəm bir xalq çıxışına çevrildi. Dərbəndi, Dağıstanı və bir çox qonşu bölgələri də əhatə edən böyük bir ərazini əhatə etdi. Bərk qorxuya düşmüş müstəmləkəçi administrasiya bu üsyanı yatırmaq üçün müxtəlif və rəzil üsullara əl atır, Qafqazın müxtəlif yerlərindən, hətta imperiyanın digər ərazilərindən buraya əlavə ciddi hərbi qüvvələr yönəldirdi. Buna baxmayaraq üsyançılar Quba şəhərini mühasirəyə ala, əyalətin əksər mahallarını azad edə, hətta qısa müddətə olsa da Quba rus qarnizonunun müqavimətini qırıb şəhərə daxil ola bilmiş, lakin tezliklə buradan sıxışdırılıb

çıxarılmışdılar. Quba şəhərinin təxminən 10-12 günlük mühasirəsi uğursuzluqla bitəndən bir qədər sonra üsyan başçısı Hacı Məhəmməd və oğlu Novruz xəyanət nəticəsində rus işğalçılarının əlinə keçsə də, mübarizə hələ bir neçə ay da davam etmiş və ancaq 1838-ci ildə baş vermiş döyüşdəki məğlubiyyətdən sonra yatırılmışdır. Ancaq üsyançıların xeyli hissəsi ruslara tabe olmayaraq rutullu Ağa bəyin başçılığı altında dağlara çəkilmiş və Şeyx Şamilə qoşularaq müstəmləkəçilərə qarşı davam etdirmişdilər. Təkcə Quba, İlisu, Car-Balakəndən olan igidlər deyil, həmçinin Azərbaycanın bir çox digər yerlərindən yüzlərlə igid Şamil hərəkatında yaxından iştirak etmişdilər. Xalq yaddaşında çoxsaylı Qarabağ igidinin "Şıx əfəndi" adlı bir şəxsin rəhbərliyi altında Dağıstana gedərək Şamilə qoşulmaları, axıradək onun sadiq qaziləri olaraq qalmaları barədə xatirələr indiyədək də hafizələrdə dolaşmaqdadır.

Yeri gəlmişkən bir neçə onilliklər boyunca bütün Rusiya imperiyasını lərzəyə salmış Qafqaz xalq azadlıq hərəkatının ideoloji prinsip və normalarının da vətəni məhz Azərbaycan olmuşdur. Təkcə silaha sarılmış sərkərdə yox, həmçinin böyük filosof, alim, ilahiyyatçı olan, dövrünün Avropa və Rusiya elminin ən parlaq elm ziyasının azsaylı sahiblərindən biri sayılan Mirzə Kazım bəylə elmin bir çox sahələri üzrə bərabərhüquqlu elmi mükaliməyə girməyə qadir olan Şeyx Şamilin "müəlliminin müəllimi" sayılan Məhəmməd Yaraqlı öz tələbələrindən birinin təklifinə əsasən bir sıra fikirdaşı ilə birlikdə Dağıstandan məxsusi olaraq Kürdəmirə gəlmiş, neçə-neçə onillər boyunca Yaxın Şərqin ən mükəmməl elm ocaqlarında dövrünün ən böyük islam alimlərindən dərs almış Şeyx İsmayıl Kürdəmirinin bir neçə gün qonağı olaraq müridizm təliminin əsaslarını ondan öyrənmiş və Dağıstana qayıdaraq bu təlimi təbliğ etməyə başlamışdılar. Məhz Azərbaycandan qaynaqlanmış Qafqaz müridizmi neçə-neçə onilliklər boyunca çar müstəmləkəçiliyinə qarşı Ümumqafqaz azadlıq mübarizəsinin ideya bayrağı rolunu oynamışdır.

1838-ci ilin yayında Nuxada Məşədi Məhəmmədin başçılığı altında yeni bir antirusiya üsyanı başlamışdır. Məşədi Məhəmmədin qüvvələri avqustun sonu – sentyabrın əvvəllərində Nuxa əyalətini, demək olar ki, tam nəzarət altına ala, sentyabrın 1-də rus qarnizonunu darmadağın edib Nuxanı ələ keçirə, qarnizonun qalıqlarını iç qalada gizlənməyə vadar edə, şəhəri üç gün əldə saxlaya bilmişdi. Bundan sonra qubalı Yarəli və rutullu Ağa bəylə birlikdə bir müddət əyaləti əldə saxlaya bilsə də, sentyabrın 30-dakı Xaçmaz məğlubiyyətindən sonra bu üsyan da yatırılmışdı.

XIX əsrin 40-cı illərində Şimali Azərbaycanda müstəmləkə rejiminə qarşı daha bir neçə nəzərəçarpan çıxışlar baş vermişdir. Məmur özbaşınalıqları, müsəlmanlar üçün müqəddəs məhərrəm ayında keçirilən təziyyə mərasimlərinin azğın ermənilər tərəfindən ələ salınmaları şuşalıları qəzəbləndirmiş və 1844-cü ilin yazında şuşalılar Qarabağ qazisi Əbdülqasım və onun yaxın silahdaşlarından Hüseyn Kərbəlayi

Mustafa oğlunun rəhbərliyi altında ayağa qalxaraq üç gün ərzində ermənilərə və onların havadarları olan yerli inzibati idarəçilik orqanlarına əməllicə "dərs" vermişdilər.

1844-cü ilin yayında isə İlisu sultanlığının sonuncu hökmdarı Daniyal sultanın rəhbərliyi altında İlisuda qısamüddətli, lakin çox kəskin bir antirusiya üsyanı baş vermişdir. İlisulular burada fəaliyyət göstərən Rusiya məmurlarına əməllicə divan tutub onların bir hissəsini məhv etmiş, qalanlarını sultanlıqdan qovmuşdular. Dağıstandan Bəşir bəyin başçılığı altında mürid dəstəsinin köməyə gəlməsi ilə bu üsyan bir qədər də genişlənsə də qüvvələrin qeyri-bərabərliyi üzündən iyunun son ongünlüyündə bir neçə ağır məğlubiyyətə uğramış və üsyan yatırılmışdır.

Bəhs olunan üsyanların, çıxışların hamısı amansızlıqla yatırılmış, onların liderləri, fəal iştirakçıları ən ağır cəzalara – edamlara, katorqalara, sürgünlərə məruz qalmış, üsyan bürümüş bölgələr, şəhər, kənd və obalar dəhşətli talanlar və vəhşi dağıntıların obyektlərinə çevrilmişdi.

Bu üsyanların məğlubiyyətinin başlıca səbəbləri, təbii ki, ilk növbədə qüvvələrin son dərəcə qeyri-bərabərliyi, müxtəlif çıxışların arasında koordinasiya və əlaqələrin yoxluğu, üsyançıların çox pis təchiz olunması və bu çıxışların qeyri-mütəşəkkilliyi idi.

Azərbaycanın minlərlə övladının məhvinə, ağır cəzalara məruz qalmasına gətirib çıxarmış bu üsyan – iğtişaş – həyəcanlar heç də tam nəticəsiz qalmamışdır. Xalqın azadlıq və suverenlik uğrunda mübarizəsi tarixində şərəfli yer tutan bu çıxışlar, əvvəla, çar administrasiyasını səmərəsiz komendant üsul-idarəçiliyindən imtina etməyə vadar etmiş, habelə bu üsyanların və digər çıxışların liderləri rolunu oynamış imtiyazlı müsəlman silklərinə qarşı daha da sərt mövqelərə yuvarlanmalara gətirib çıxarmışdır.

Lakin heç bir, hətta, ən amansız cəza tədbirləri, kütləvi repressiyalar xalqın iradəsini sındıra bilməmiş, işğal-müstəmləkə rejiminə qarşı azadlıq mübarizəsi romanovların Şimali Azərbaycandakı bütün mürtəce ağalığı dövründə heç vaxt tamamilə kəsilməmişdir.

Əvvəlki illərdə olduğu kimi XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda çarizmin müstəmləkə siyasətinə qarşı kəndli mübarizəsi davamlı olmuşdur. 1853-cü ilin avqustunda Şamilin öz dəstəsi ilə Zaqatalaya gəlməsi rus qoşunları arasında çaşqınlıq yaratmışdı. Avqustun 25-i, 29-u, sentyabrın 3-ü və 4-də tərəflər arasında həlledici döyüşlər baş vermişdir. Çoxlu itki verməmək üçün Şamil geri çəkilməli olmuşdur. 1854-cü ilin iyulun 3-də Şamil yenidən Car-Balakənə yürüş etmişdir. Şamilin bu dəfəki yürüşü Osmanlı qoşun hissələri ilə birləşmək məqsədi güdürdü. Lakin Şamilin bu yürüşü də uğursuz olmuşdur.

1863-cü il iyunun əvvəlində Zaqatala bölgəsində növbəti üsyan baş verdi. Üsyana Hacı Murtuz rəhbərlik edirdi. Onun dəstəsində 3 minədək üsyançı var idi.

İyunun 5-dən 6-na keçən gecə, səhərə yaxın üsyançılar qalaya hücuma keçdilər. Üsyançılar qaladan artilleriya və tüfənglərdən açılan şiddətli atəşlə pərən-pərən salındılar. Üsyançıların qalanı ələ keçirmək üçün sonrakı cəhdləri də müvəffəqiyyət qazanmadı. Dağıstandan gözlənilən köməyin gəlməməsi üsyançıların öz-özünə dağılmasına səbəb oldu. Hərbi-səhra məhkəməsinin qərarı ilə üsyanın 18 nəfər fəal iştirakçısı dar ağacından asılmış, 1000 nəfərdən çox üsyançı, o cümlədən onların ailələri həbs edilərək katorqa işlərinə sürgün olunmuşdular. Hacı Murtuz 1864-cü il fevralın 8-də təslim olmuş, tezliklə Yenisey quberniyasına sürgün edilmiş və burada da ölmüşdür.

1877-ci ilin aprelin 12-də Rusiya-Osmanlı müharibəsinin başlanması Qafqazda siyasi vəziyyəti xeyli kəskinləşdirdi. Həmişə türklərin uğurlarına sevinən Qafqaz müsəlmanları, o cümlədən azərbaycanlılar, bu müharibədə osmanlılarla həmrəy olduqlarını bildirərək ruslara qarşı silahlı mübarizəyə qalxdılar. Sentyabr-noyabr aylarında şimal bölgələrində baş vermiş üsyanlara yüzlərlə kəndli qoşulmuşdu. Dərbənd bölgəsinin tərəkəmə kəndləri olan Vəlikənd, Bilər, Padar, Tətagər, Ulutərəkəmə, Korodalı, Dəliçoban, Bəriköy və Cəmikənd əhalisi ilk əvvəllər üsyanlarda fəal iştirak etsələr də, qırğına getməyərək silahı yerə qoymaq məcburiyyətində qalmalı olmuşdular. Quba qəzasında baş vermiş üsyanda fəal iştirak etdiklərinə görə 12 kəndin 26 sakininin evləri yerlə yeksan edilmiş, özləri isə sürgünə göndərilmişdilər. Nuxa qəzasında hökumətin qoşun hissələri ilə döyüşlərdə 200-dən 300-ə qədər üsyançı öldürülmüşdü. Zaqatala üsyançılarından 150 nəfər öldürülmüş, üsyanda iştirak etdiklərinə görə Qax, Sarıbaş və İlisu kəndlilərindən 6 nəfər 8 il müddətinə və Zərnə, Bum, Ləki, Sarıbaş kəndlilərindən 13 nəfər 6 il müddətinə Rusiyanın daxili quberniyalarına sürgün olunmuşdular.

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda çarizmin müstəmləkə zülmünə qarşı kəndli mübarizəsinin ən geniş yayılmış forması qaçaq hərəkatı olmuşdur. XIX əsrin 50-ci illərinin əvvəllərində Qarabağ qəzasında qaçaq Adıgözəl və qaçaq Məhərrəm, Quba qəzasında qaçaq Dərviş Qasım oğlu məşhur idi. Krım müharibəsi dövründə Qafqaz cəbhəsində döyüşən rus qoşununa qənim kəsilən qaçaq İşim oğlu bu illərin ən tanınan qaçaqlardan biri idi. XIX əsrin 60-cı illərində qaçaq İskəndər Zal oğlu məşhurlaşmağa başladı. Onun oğlu Kərəm də qaçaq olmuşdur. Kəndlilərin müdafiəçisinə çevrilmiş Kərəm ələ keçirilmiş əmlakın çox hissəsini yoxsul kəndlilər arasında paylayırdı. XIX əsrin 80-ci illərində qaçaq Tanrıverdi, Əli Xıdır oğlu və digər yüzlərlə qaçaqların dəstələri mübarizə aparırdılar. 1895-ci ildə Quba şəhərində 11 qaçağa məhkəmə hökmünün oxunması qaçaq hərəkatının geniş yayıldığını göstərirdi. XIX əsrin son rübündə xalqın işərisində geniş şöhrət qazanmış qəhrəman Qaçaq Nəbi, Qaçaq Dəli Alı, Qaçaq Əbdülkərimin dəstələri hökumət qüvvələrini əldən salmışdı.

## *Çar inzibati-ərazi idarəçiliyi*

Bütövlükdə götürüldükdə başlıca vəzifəsi imperiyanın Şimali Azərbaycandakı müstəmləkəçilik məqsədlərinin reallaşdırılmasının ən əsas, təsirli və geniş gücə malik olan müstəmləkəçi inzibati-idarəçilik sisteminin ilk mərhələsi Qafqazdakı Rusiya qoşunlarının baş komandanlığı dövrü (1801-1844-cü illər) idi.

Baş komandanlıq dövrü Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, komendant üsul-idarəçiliyi və bu sonuncunun ləğvindən sonrakı bir neçə ili əhatə etmişdir. Bu dövrdə ələ keçirdiyi müsəlman torpaqlarında sosial-iqtisadi, ictimai-siyasi, o cümlədən inzibati idarəçiliyin özəlliklərindən bixəbər olan təcavüzkar Rusiya imperiyası inzibati-ərazi idarəçiliyində də ənənəvi olaraq kobud hərbi mexanizmlərdən istifadəyə üstünlük vermişdir. Belə ki, bir-birinin ardınca işğal edilən, tabe edilən xanlıqların yerində rus zabitləri sırasından Qafqazdakı Rusiya qoşunlarının baş komandanı tərəfindən təyin olunan komendantların idarə etdikləri əyalətlər yaradılmışdı. İşğalçılara silahlı müqavimət göstərmiş xanlıqlar dərhal (Gəncə 1804-cü il, Quba və Bakı 1806-cı ildə və s.), formal olaraq “dinc” yolla imperiyaya tabe edilmiş xanlıqlar isə müxtəlif bəhanələrlə tədricən (Şəki-1819, Şirvan-1820, Qarabağ-1822, Lənkəran-1826, Naxçıvan və İrəvan 1827, Car-Balakən camaatları-1830-cu ildə) ləğv olunmuş və keçmiş xanların bütün səlahiyyətləri, ölüm hökmü istisna olmaqla (hərçənd ki, Lənkəran əyalətinin komendantlarından biri hətta bu məhdudiyyətə məhəl qoymayaraq lazım bildikləri “cinayətkarları” müxtəlif üsullarla “ləğv etdirmək” dən çəkinməmişdir), yeni təyin olunan rus komendantlarına verilmişdir. Onlar da özlərini əyalətlərin tamhüquqlu ağası kimi aparırdılar. Lənkəran komendantları məhbusları məhv etdirir, Şəki komendantı Starkov xan sarayındakı çox qiymətli xalçanın “dədə malı” kimi general Velyaminova əta edirdi və s. Gəncə xanlığının yerində Yelizavetpol dairəsi, Car-Balakən camaatlarının yerində eyniadlı vilayət, Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının yerində distansiya adlı inzibati-ərazi vahidləri yaradılmışdı. 1827-ci ildə işğal olunmuş Naxçıvan və İrəvan xanlıqlarının yerində isə 1828-ci il martın 21-də eyniadlı iki əyalətdən ibarət “Erməni vilayəti” (1828-1840) adlı bir inzibati-ərazi vahidi yaradılmışdır.

Yeni təşkil olunan əyalətlərdə keçmiş xanlıqlardakı mahallara bölünmə, demək olar ki, olduğu kimi saxlanılmışdır. Çoxəsrlik tarixə malik olan və yerli əhalinin sosial-iqtisadi həyatında ciddi rol oynamış mahallara bölünməni əvəz etməyə, görünür ki, nə kifayət qədər kadr potensialı, nə də təcrübəsi çatmırdı. Mahalları idarə edən naib vəzifələrinə işğal və dərhal sonrakı dövrdə işğalçılara boyun əyib qulluq göstərmiş, “sədaqət” nümayiş etdirmiş yerli bəylər, sultanlar və ya imtiyazlı təbəqələrin digər nümayəndələri təyin olunurdular.

Cənubi Qafqazda, əsasən də Şimali Azərbaycanda müsəlman əyalətləri mərkəzləri Dərbənd və Şuşa şəhərləri mərkəz olmaqla iki müsəlman əyalətləri dairəsi arasında "bölüşdürülmüşdü".

Çox tezliklə bu inzibati idarəçiliyin səmərəsizliyi və işğal rejiminin mənafelərinə cavab verə bilməməsi aşkara çıxdı. Artıq XIX əsrin 20-ci illərinin sonu-30-cu illərinin əvvəllərində Rusiya senatorları Kutaysov və Meçnikovun yeni işğal edilmiş bölgələrdə apardıqları təftiş komendantların fəaliyyətində saysız-hesabsız qanun pozuntuları, korrupsiya və özbaşınalıq faktları üzə çıxardı. Çarizmi bu sistemdə təmin etməyən əsas iki məsələ idi: əvvəla, komendant rejimi çar xəzinəsinin bu diyardan gözlədiyi gəlirləri təmin edə bilmirdi; Cənubi Qafqaz əhalisindən soyulub alınan vergi gəlirləri çar məmurlarının, ilk növbədə də komendantların tərəfindən açıq-aşkar oğurlanırdı, diyarın gəlirləri heç burada yaradılmış hərbi, siyasi və inzibati idarəçilik sisteminin xərclərini ödəyə bilmirdi; ikinci, komendantlıq sistemi nəinki işğal olunmuş Şimali Azərbaycanda müstəmləkəçilərin arzusunda olduqları "ictimai-siyasi sabitliyi" qoruyub saxlaya bilmir, əksinə qaba idarəçilik mexanizmləri ilə yerli əhalinin nifrətini doğurur, onları müstəmləkə rejiminə qarşı ən passiv müqavimətdən tutmuş açıq silahlı üsyanlaradək müxtəlif antirusiya çıxışlarına bir növ "təhrik" edirdi.

Ona görə də artıq XIX əsrin 30-cu illərinin ortalarından Rusiyanın Qafqaz administrasiyası və mərkəzi imperiya dairələrində bu sistemin dəyişdirilməsi fikri meydana çıxmış və tədricən qətiləşmişdi. Senator Qan və başqalarının işləyib hazırladıqları, uzun-uzadı müxtəlif instansiyalarda müzakirə edilmiş islahat layihələri əsasında nəhayət ki, 1840-cı il 10 aprel qanunu ilə komendant idarə üsulu ləğv edildi və bütün Cənubi Qafqaz iki böyük inzibati-ərazi vahidinə bölündü: Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti. Şimali Azərbaycan torpaqları Dərbənddən Şəkiyə, Qarabağa və Lənkəranadək Xəzər vilayətinin tərkibinə daxil edilmişdir. Qərbi Azərbaycan torpaqları – Borçalı, Qazax, Şəmşəddil, İrəvan, Naxçıvan, habelə Gəncə torpaqları Gürcüstan-İmeretiya quberniyasına qatıldı, keçmiş əyalətlər qəzalara çevrildi və onların mahallara bölgüsü ləğv olundu.

Çarizm 1830-cu illər üsyanlarında fəal iştirak etmiş imtiyazlı müsəlman təbəqələrinin nümayəndələrini cəzalandıraraq, onların tutduqları naib vəzifələrini də mahallarla birlikdə ləğv edib, qəzaları Rusiyanın daxili quberniyalarında olduğu kimi sahələrə bölüb onları rus və digər xristian məmurların idarəsinə tapşırdı. Keçmiş Car-Balakən vilayətinin yerində isə 1841-ci ildə qısa müddət mövcud olmuş Balakən qəzası yaradıldı. Çox az keçmiş mərkəzi imperiya dairələri Qafqazın inzibati idarəçiliyində sərt dönüş etmək, bu işi birbaşa imperator idarəçiliyinin nəzarətinə götürmək qərarına gəldi.

I Nikolay hakimiyyəti 1844-cü ildə Qafqazda xüsusi canişinlik yaradıldığını elan etdi. Beləliklə, idarəçilikdə yeni mərhələ-canişinlik dövrü (1844-1881) başladı.

Bu böyük diyar birbaşa çar tərəfindən təyin olunan, Qafqaz idarəçiliyinin bütün sahələrinə rəhbərlik edib öz fəaliyyəti barədə bilavasitə ancaq çara hesabat verən canişinə tapşırıldı. Qafqazın ilk canişini vəzifəsinə çarın yaxın adamlarından biri olan tanınmış siyasətçi M.S.Voronsov təyin edildi. Onun onillik canişinliyi dövründə (1844-1854) Qafqazın, habelə Cənubi Qafqazın və eləcə də Şimali Azərbaycanın inzibati idarəçiliyində xeyli dəyişikliklər edildi. Voronsovun təkliflərinə əsasən artıq 1846-cı ildə Cənubi Qafqaz 4 quberniyaya – Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü.

Azərbaycan torpaqlarının əksəriyyəti Dərbənd və Şamaxı quberniyalarının, qərbi və şimali-qərbi Azərbaycan torpaqlarının xeyli hissəsi – o cümlədən Naxçıvan, İrəvan, Borçalı-Şəmşəddil-Qazax və Gəncə bölgələri Tiflis quberniyasının tərkibinə qatıldı. Car-Balakən torpaqlarında yaradılmış hərbi dairə isə bilavasitə canişinə tabe olan inzibati ərazi vahidi elan edildi.

1849-cu ildə Tiflis və Şamaxı quberniyalarının bir sıra torpaqları hesabına Cənubi Qafqazdakı Qərbi Azərbaycan torpaqlarının əksəriyyətini əhatə edən yeni – İrəvan quberniyası yaradıldı.

İrəvan quberniyası əvvəlcə beş qəzadan ibarət idi: İrəvan, Aleksandrapol (Gümrü), Naxçıvan, Ordubad və Yeni Bəyazid. Bir qədər sonra Ordubad Naxçıvan qəzasına birləşdirildi, yeni Eçmiədzin qəzası təşkil olundu, 1875-ci ildə isə iki yeni qəza-Sürməli və Şərur-Dərələyəz qəzaları yaradılmaqla bu quberniyadakı qəzaların sayı 7-yə çatdırıldı. 1867-ci il 9 dekabr tarixli fərmana əsasən 1868-ci il fevralın 19-da Tiflis, İrəvan və Bakı quberniyalarının hesabına mərkəzi qədim Gəncə, 1804-cü il işğalından dərhal sonra Yelisavetpol adlandırılmış şəhər olan eyniadlı quberniya yaradıldığı elan olan olundu. Bu quberniya XIX əsrin sonlarında Qazax, Yelizavetpol, Şuşa, Cavanşir, Nuxa, Zəngəzur, Ərəş və Cəbrayıl qəzalarından ibarət idi.

"Zaqafqaziya (Cənubi Qafqaz.-red.) diyarının bölünməsi haqqında" 1846-cı il dekabrın 14-də təsdiq edilmiş fərmana əsasən yaradılmış mərkəzi Şamaxı şəhəri olan eyniadlı quberniyanın tərkibinə Şamaxı, Bakı, Lənkəran, Nuxa və Şuşa daxil idi.

1859-cu ilin əvvəllərində Şamaxı şəhərini xarabazarlığa çevirmiş dəhşətli zəlzələdən sonra quberniya mərkəzi Bakıya köçürülmüş və Bakı quberniyası adlandırılmağa başlamışdır. 1867-ci il 9 dekabr tarixli çar fərmanına əsasən Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişiklikləri aparılarkən bu quberniyanın tərkibində yeni Göyçay və Cavad qəzaları yaradılmış, növbəti il isə Nuxa və Şuşa qəzaları Yelizavetpol quberniyasının tərkibinə verilmişdir.

1860-cı ildə 1846-cı ildən bəri mövcud olan Dərbənd quberniyası (bu quberniya Dərbənd və Quba qəzalarını, Qazıqumux və Kürə feodal dövlətlərinin, habelə bəzi camaatların ərazilərini əhatə edirdi) ləğv edildikdən sonra Azərbaycanın keçmiş

Dərbənd xanlığı ərazisi Dağıstan vilayətinin tərkibinə daxil edilmiş, bu quberniyanın təkibində olmuş Quba qəzası isə Bakı quberniyasının tərkibinə verildi.

Beləliklə, XIX yüzilliyin sonlarına doğru Şimali Azərbaycan torpaqları Bakı, Yelisavetpol və İrəvan quberniyaları, habelə Dağıstan vilayətinin Dərbənd bölgəsini əhatə edən Qaraqaytaq bölgəsi, Tiflis quberniyasının Borçalı, qismən də Sığnaq qəzalarının, habelə keçmiş Car-Balakən camaatları və İlisu sultanlığının ərazisini əhatə edən, 1860-cı ildə keçmiş Car-Balakən dairəsinin yerində yaradılmış Zaqatala dairəsi arasında bölüşdürülmüşdü (Car-Balakən camaatlarının ərazisində çar hakimiyyəti 1830-cu ilin əvvəllərində eyniadlı vilayət yaratmış, 1841-ci ildə bu vilayət Gürcüstan-İmeretiya quberniyasının tərkibində Balakən qəzası adlandırılmış, 1844-cü ildə ləğv edilmiş İlisu sultanlığı da daxil edilməklə Car-Balakən hərbi dairəsinə çevrilib birbaşa Qafqaz canişinlik idarəsinin tabeçiliyinə verilmiş, ta 1880-ci illərin sonunadək heç bir quberniyanın tərkibinə qatılmamışdır).

Beləliklə, çarizmin bütün XIX əsr ərzində Quzey Azərbaycanda yürütdüyü inzibati-ərazi siyasəti də sırf müstəmləkəçilik məqsədlərinə xidmət göstərmiş, heç bir milli-etnik sərhədlərə məhəl qoymamış, əslində xalqlara münaqişə ocaqları yaradılıb saxlanılması qeydinə qalmışdır.

### *Sosial-iqtisadi həyat*

XIX əsrin ilk otuz ilindəki müharibələr Şimali Azərbaycanın sosial-iqtisadi həyatına çox ağır zərbələr vurmuşdur. Kənd və şəhərlər işğalçılar tərəfindən xarabazarlıqlara çevrilmiş, xeyli əhali qırılmış, yaralanmış və ya doğma yurdları tərk etməli olmuşdur. Hələ ilk rus-qacar müharibəsinin gedişində Qarabağ xanlığının əhalisi təxminən 3 dəfə azalmış, buradakı ailələrin sayı 10 mindən təxminən 3 minə enmişdi. Şirvan bölgəsində də təxminən eyni vəziyyət qeydə alınmışdır.

Müharibələr başa çatdıqdan dərhal sonra aparılmış ilk az-çox tam siyahıya almaların (kameral təsvirin) nəticələrinə görə, 1830-cu illərin əvvəllərində Qarabağ əyalətində 20,5 min, Şəkidə – 21,6 min, Bakı, Dərbənd və Quba əyalətlərində – 20 minədək, İrəvanda – 22,3 min, Naxçıvanda 19 min həyət-təsərrüfat qeydə alınmışdı.

İşğaldan sonra da Şimali Azərbaycan kənd təsərrüfatı ölkəsi olaraq qalırdı. Hələ xanlıqlar dövründən qalma 100-dən çox vergi və mükəlləfiyyətlərin boğduğu iqtisadi həyatda ekstensiv təsərrüfatçılıq başlıca yeri tuturdu. Kənd təsərrüfatında başlıca yer əkinçilik, taxılçılıq sahəsinə məxsus idi. 1830-cu illərin sonu 40-cı illərin ortalarında burada hər il 15-18 mln pud taxıl əldə olunurdu. Taxılçılar əsasən buğda, arpa, çəltik və s. becərirdilər.

Kənd təsərrüfatında ikinci əsas sahə maldarlıq idi. XIX əsrin ortalarına yaxın burada təxminən 400 min baş iri və 800 min baş xırda buynuzlu mal-qara var idi.

Qafqaz ipəkçiliyinin başlıca mərkəzi olan Şimali Azərbaycanda hər il təxminən 30 min pud xam ipək istehsal olunurdu ki, bu da bütün Qafqaz ipək istehsalının təxminən 85-90%-ni təşkil edirdi.

XIX əsrin bütün I yarısı ərzində çarizm Şimali Azərbaycanda çox qeyri-sabit bir iqtisadi siyasət yürüdürdü. Bu müsəlman şərq ölkəsinin sosial-iqtisadi münasibətlərindən bixəbər olan romanovlar administrasiyası bir tərəfdən özünə ~~bu~~ yeni müstəmləkədə dayaqlar yaratmaq üçün əsasən işğalçılara yarınan yerli imtiyazlı silk nümayəndələri və Ağa Mir Fəttah kimi açıq-aşkar satqınları bol-bol mükafatlandırır (təkcə Bakı və Quba əyalətlərində sabiq Bakı xanı II Mirzə Məhəmmədin oğlanlarına saysız-hesabsız kəndlər bağışlanmışdı), digər tərəfdən müharibələr dövründə müqavimət göstərmiş və sürgün olunmuş torpaq sahiblərini əfv edərək (1830-cu ildə) öz yurdlarına qaytarır, ya da əhali içərisində onların nüfuzunu qırmaq üçün müxtəlif "Əsasnamə" və təlimatları (1817-1819-cu illərdə) tətbiq etməyə, 1830-cu illərdəki üsyanlarda fəal iştiraklara görə tiyuldarları cəzalandırmaq üçün 1841-ci ildə olduğu kimi onların başlıca var-dövlətləri olan tiyul torpaqlarının əllərindən almağa cəhd göstərirdi. Bu son cəhddən bir şey çıxmadıqda çar hökuməti öz siyasətində sərt dönüş edərək 1846-cı ildə Şimali Azərbaycanın tiyuldarlarının hüquqlarına dair 6 dekabr reskriptini verdi, 1847-ci ilin xüsusi "Kəndli əsasnamə"ləri ilə onların kəndlilər üzərində polis-məhkəmə hüququnu tanıdı. Lakin 1865-ci ildə verilən yeni bir qanunla bəylər və ağalar kəndlərin inzibati idarəçiliyinə müdaxilə hüquqlarından məhrum edildilər.

XIX əsrin ortalarında Şimali Azərbaycan kəndliləri xəzinə və xüsusi sahibkar torpaqlarında yaşayan iki əsas qrupa bölünürdülər. Xəzinə və xüsusi sahibkar mülkləri arasında sərhədlər qeyri-müəyyən olaraq qalır, bəzən eyni kənddə həm xəzinə, həm sahibkar, həm də çox cüzi sayda olsa da tam azad kəndlilər yaşayırdılar. 1861-1862-ci illərdə mərzləmə haqqında qanun verilsə də, xüsusi Mərz Palatası yaradılıb bu işə külli miqdarda vəsait xərclənsə də heç bir nəticə əldə olunmadı. Krım müharibəsindəki ağır məğlubiyyətdən sonra ölkənin sosial-iqtisadi həyatında bir sıra islahatlar aparmağa cəhd göstərdi. Bu cəhdlərin çərçivəsində 1870-ci il mayın 14-də Şimali Azərbaycanda kənd əhalisinin təxminən 29-30 faizini təşkil edən sahibkar kəndliləri öz pay torpaqlarının satın almasına icazə verdi. Lakin bu özəlləşdirmə şərtləri o qədər ağır idi ki, Mərkəzi Rusiya quberniyalarından fərqli olaraq dövlətin maliyyə dəstəyinin yoxluğu şəraitində sahibkar kəndliləri bu islahatdan keçən sonrakı 40 il ərzində pay torpaqlarının heç yüzdən birini zorla özəlləşdirə bilmişdilər. Odur ki, ancaq 1912-ci il dekabrın 20-də çarizm yeni aqrar islahatla bu işi reallaşdıra bildi, o da ki, axıra çatdırılmadı.

Şimali Azərbaycanın kənd əhalisinin 60-70 faizini təşkil edən xəzinə kəndlilərinin torpaq sahibliyi məsələsində isə çarizm öz feodal torpaq mülkiyyətçiliyi xislətindən axıradək əl çəkə bilmədi və ancaq 1900-1903-cü illərin aqrar qanunları ilə

xəzinə kənd icmalarının torpaq üzərində daimi istifadə hüququnu tanımaqdan uzağa gedə bilmədi.

Çarizmin bütün müstəmləkə ağalığı dövründə Şimali Azərbaycan kəndinin idarəçiliyində hökm sürən xaosa axıradək son qoyulmadı. Düzdür, ilk növbədə imperiya xəzinəsinin gəlirlərinin artırılması haqqında düşünən müstəmləkəçilər hələ XIX əsrin 30-cu illərində burada orta əsrlərdən qalma rahdar sistemini ləğv etmiş, 30-cu illərin sonu 40-cı illərin əvvəlində vergilərin unifikasiyası, yerli çoxsaylı pulların rus pulu ilə əvəzlənməsi sahəsində ciddi addımlar atmış, kənd təsərrüfatının bu və ya digər sahələrinin inkişafına kömək etməli olan müxtəlif cəmiyyətlər, ipəkçilik və ticarəti yayan cəmiyyət, kənd təsərrüfatı cəmiyyəti, ipəkçilik stansiyası yaratmış, vahid ölçü, çəki, pul sisteminin tətbiqi sahəsində müəyyən addımlar atmışdılar. Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədi ilə aparılan işlərin hamısının başlıca məqsədi bu sahəni büsbütün hökumətin nəzarəti altına cəmləməyə yönəlmiş bu siyasət çox vaxt istənilən nəticəni (yaylaq və qışlaq otlaqlarından istifadə haqqında 1880-ci illərin qaydaları, 1890-cı il su sahibliyi və sudan istifadə haqqında qanun və s.) vermirdi. Nəticədə həm yerli ictimai, həm Qafqaz, həm də ümumrusiya vergi və mükəlləfiyyətləri zaman-zaman artaraq iqtisadiyyatın bu mühüm sahəsinin intensiv inkişafı yolunda ciddi maneələr yaradırdı.

Düzdür, XIX əsrin son otuz ilindən etibarən Şimali Azərbaycanın kənd təsərrüfatında nəzərəçarpan dəyişikliklər baş verməkdə idi: əmtəə-kapitalist münasibətlərinin inkişafı kəndə də təsir göstərir, bazara yönümlü sahələr meydana çıxır və sürətlə inkişaf edir, texniki bitkilərin becərilməsi genişlənir (XIX-XX əsrlərin qovuşuğunda pambıq plantasiyalarının sahəsi təxminən 100 desyatinə çatmışdır), kənddə əmtəə istehsalının həcmi durmadan genişlənir, yeni mütərəqqi təsərrüfatçılıq meylləri, daha mükəmməl texnikanın tətbiqi – tədricən artırdı.

Rusiya işğalı başa çatdıqdan sonra xeyli müddət Şimali Azərbaycan sənətkarlığı, ticarəti və sənayesində bir müddət süstlük hökm sürürdü. Siyasi pərakəndliliyin qalmaqda olan bəzi təsirləri, yeni müstəmləkəçi ağaların yerli təsərrüfatçılığın xüsusiyyətlərindən baş çıxara bilməmələri və s. bu sahələrin inkişafına ciddi əngəllər törədirdi. Nə müxtəlif gömrük tariflərinin (1821-1831-ci illərin tarifləri), nə Xanabad manufakturası (1829) kimi tək-tək müəssisələrin yaradılması və s. vəziyyəti kökündən dəyişə bilmirdi. Vaxtilə Bakı xanlarına xeyli gəlir verən neft hasilatı, duz çıxarılması kimi sahələrin idarəçiliyindən xəbərsizlik onların uzun onilliklər boyu çox səmərəsiz müqatiələrə verilməsinə gətirib çıxarmışdı. Ayrı-ayrı cəhdlər (1847-1848-ci illərdə Bibiheybətdə buruq üsulu ilə ilk neft quyusunun qazılması və s. ) bir nəticə vermirdi.

Krım müharibəsindən sonra yaranmış ağır durum hökuməti bu sahədə də kəsərli addımlar atmağa vadar etdi. 1859-cu ildə Suraxanıda ilk neftayırma zavodunun işə salınması, 1864-cü ildə Balaxanı kəndlilərinin neft mədənlərində, Sust, Şıxmahmud

və Cəhri kəndlilərinin Naxçıvan duz mədənlərində (1868), habelə bəzi digər sahələrdə kəndlilərin məcburi əməyinin ləğvi, muzdlu əməyə keçid sənaye sahələrində ciddi dönüşün başlanğıcı üçün bünövrə yaratmış oldu.

1872-ci ilin fevralında əvvəlcə neftayırma müəssisələri üzərinə aksiz vergisinin qoyulması, az sonra neft və duz hasilatında iltizam-müqatiə sisteminin ləğvi, 1872-ci ilin dekabrında Abşerondakı neftli torpaqları hərrac yolu ilə xüsusi sahibkarlara "satılması" (əslində çox ucuz qiymətə – hər desyatini ildə 10 rubla, – uzunmüddətli, bəzən 33-99 ilə icarəyə verilməsi) elə bir görünməmiş neft sənayesi partlayışı yaratdı ki, quberniya mərkəzinə çevriləndə heç 9000 nəfər belə əhalisi olmayan əyalət şəhəri Bakı cəmisi 20-25 il ərzində dünyanın neft mərkəzinə, neft akademiyasına, 110 minlik əhalisi olan neft kralına çevrilib dünya neft hasilatının 50%-dən çoxunu, Rusiya imperiyasındakı neft hasilatının isə 90%-ni verməyə başladı. 1901-ci ildə burada artıq 670 mln pudadək neft hasil edilmişdir. Birinci Dünya savaşı ərəfəsində Bakı 240 min nəfərlik əhalisi olan, təxminən 400 min nəfər əhalinin yaşadığı nəhəng neft sənayesi rayonunun mərkəzi, Qafqaz iqtisadiyyatının şəriksiz lideri idi.

XIX əsrin ortalarından başlayaraq Şimali Azərbaycanın əlvan metallurgiyası yeni inkişaf mərhələsinə gədəm qoymuşdur. 1855-ci ildə yerli sahibkarların Gədəbəydə ilk misəritmə zavodunu işə salması, 1864-1865-ci illərdə bu sahəni ələ keçirmiş alman işbazları Simens qardaşlarının çoxsahəli Gədəbəy-Qalakənd-Daşkəsən misəritmə kompleksi bu bölgəni təkcə Qafqazın deyil, bütün Rusiya imperiyasının ən iri əlvan metallurgiya mərkəzlərindən birinə çevirdi. Artıq 1870-ci illərdə Gədəbəy misəritmə kompleksi 1000 nəfərədək işçinin çalışdığı, hər il 50-60 min pudadək mis istehsal edən sənaye nəhənginə çevrilmişdi.

XIX əsrin ortalarından Azərbaycan toxuculuq sənayesində ciddi canlanma hiss olunurdu. Buxar mühərrikli Xanabad, Ordubad, Əylis və digər ipəksarıma fabrikləri, yeyinti sənaye müəssisələrinin meydana çıxması və s. Şimali Azərbaycan sənayesinin yeni inkişaf mərhələsinə qədəm qoymasından xəbər verirdi.

XIX əsrin ortalarına yaxın Şimali Azərbaycanın əhalisinin təxminən 10 faizi şəhərlərdə yaşayırdı. Bakı, Dərbənd, Şamaxı, Nuxa, Şuşa, Yelisavetpol, İrəvan, Naxçıvan, Quba və Lənkəran şəhərlərimiz ciddi ticarət mərkəzlərinə çevrilməkdə idi. Təsadüfi deyildir ki, 1876-cı ildə çarizm bu şəhərlərdə gildiya ticarəti qaydalarının tətbiqinə rəvac verdi. Hələ 1877-ci ildən etibarən Cənubi Qafqaza tətbiq olunan şəhər idarəçiliyi islahatı, şəhərlərə məhdud səlahiyyətli olsa da şəhər bələdiyyələri-dumalar yaratmaq hüququ verən islahatlar 1878-ci ildə Bakıda tətbiq olundu. Bunun ardınca İrəvan, Yelisavetpol (Gəncə), Şuşa şəhərlərində də yerli bələdiyyə strukturları yaradıldı. Nisbətən kiçik şəhərlərdə isə məhdud seçkilər yolu ilə yaradılan müvəkkillər idarələri fəaliyyətə başladı.

Bu sənaye və digər sahələrin ən zəngin qazanc mənbələri nə qədər də xarici və rus kapitalı nümayəndələrinin (Nobel, Rotşild, Vişau, Simens və s.) əllərində olsa da yerli milli ticarət-sənaye burjuaziyası da tədricən təşəkkül tapmaqda idi. Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Ağabala Quliyev, Şəmsi Əsədullayev və b. kimi milli sahibkarlar sərvət topladıqca ölkənin nəinki iqtisadi, həmçinin mənəvi-ictimai həyatında da ciddi söz sahiblərinə çevrilməyə başlayırdılar.

Bütün bu yeniliklər Şimali Azərbaycanın ictimai-mənəvi həyatında da ciddi keyfiyyət dəyişikliklərinə gətirib çıxarmaya bilməzdi. Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Şeyx İsmayıl, Seyid Həmzə Nigarı, Ünsizadə qardaşları, Əli bəy Hüseynzadə, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və bir çox başqaları əhali içərisində ictimai düşüncə, milli-mənəvi özünüdərkin müsəlman hümmətçiliyi anlamından azərbaycanlı düşüncəyə keçməyin bünövrəsinin qoyulmasında ciddi rol oynamışdılar. Bir tərəfdən müstəmləkə rejiminin ağır istibdadı altında milli özəlliklərin qorunması istəkləri, digər tərəfdən rus, alman, fransız ictimai fikirləri ilə tanışlıq, başqa bir tərəfdən isə əmtəə-bazar-kapitalist münasibətlərinin inkişaf etməsi hesabına ölkənin müxtəlif bölgələri arasında iqtisadi əlaqələrin sıxlaşması, vahid bazarın təşəkkül tapması, Azərbaycan türk dilinin öz hakim mövqelərini daha da möhkəmləndirməsi, ümumazərbaycan mədəniyyətinin formalaşmasının sürətlənməsi milli şüurun inkişafında yeni mərhələnin başlanmasından, Azərbaycan türk millətinin formalaşmasından xəbər verirdi.

XIX əsrin sonlarına yaxın Şimali Azərbaycanın Dərbənddən Borçalı və Sürməliyədək, Zaqataladan Lənkəranadək, İrəvandan Bakıyadək olan geniş ərazilərində eyni dildə danışan, eyni mədəniyyətə və milli-mənəvi dəyərlərə malik olan, bir-biri ilə iqtisadi-mənəvi-mədəni bağlarla qırılmaz şəkildə bağlı olan vahid millət – Azərbaycan türk milləti formalaşmışdı. 1897-ci il birinci ümumrusiya əhali sayımının nəticələrinə görə, Bakı quberniyasında 425.146 nəfər, İrəvan quberniyasında 313.176 nəfər, Yelisavetpol quberniyasında 534.086 nəfər, Tiflis quberniyasında 107.383 nəfər, Dağıstan vilayətində 32.143 nəfər, yəni Kutaisi quberniyası nəzərə alınmazsa, bütün Cənubi Qafqazda cəmi 1,5 mln nəfər adam Azərbaycan türkcəsində danışırdı.

Bu millət əsrlərdən bəri Azərbaycanda çiyin-çiyinə yaşayan talış, avar, ləzgi, ingiloy, tat, dağlı, udin və digər qardaş xalqların nümayəndələri ilə birlikdə ölkənin mənafeləri uğrunda mübarizəni davam etdirdi.

## Şimali Azərbaycan XX əsrin əvvəllərində

XX əsrin əvvəlində baş verən iqtisadi böhran həm Rusiyanı, həm də onun müstəmləkələrini əhatə etdi. Bütün imperiyanı sarsıdan tətillər dalğası sənaye potensialı gündən-günə artan Azərbaycanı da bürüdü. Müstəmləkəçi siyasətini

yerindən hakimiyyət orqanlarının özbaşınalıqları bütövlükdə cəmiyyətin bütün təbəqələrində narazılığın artmasına və onun siyasiləşməsinə səbəb oldu.

Rusiya imperiyasını bürümüş ümumi böhranla əlaqədar yaranan ağır iqtisadi vəziyyət, cəmiyyətin təbəqələşməsinin kəskin surətdə artması, digər tərəfdən isə sosialist partiyaların meydana çıxması və onlar tərəfindən siyasi təbliğatın gücləndirilməsi XX əsrin əvvəlində güclü fəhlə hərəkatının meydana çıxmasına gətirib çıxardı.

1904-cü il yanvarından 1905-ci ilin avqustunadək davam edən Rusiya-Yaponiya müharibəsi xalqın onsuz da aşağı olan həyat səviyyəsini pisləşdirmiş oldu. Sosial etirazların qarşısını almaq üçün Bakı və onu ətrafında olan rayonlarda yeni polis sahələri yaradıldı. Bu müharibədə Rusiyanın məğlubiyyəti bütün imperiyada siyasi və iqtisadi böhranı gücləndirmiş, Azərbaycandakı vəziyyətə də təsirsiz ötüşməmişdir.

1905-ci il Rusiyanı lərzəyə salmış 9 Yanvar hadisələri ümumi sosial partlayışa səbəb oldu. 1905-ci il fevralın 8-dən II Nikolayın fərmanı ilə Bakı şəhəri və quberniyasında hərbi vəziyyət tətbiq olundu. Oktyabrın 17-də II Nikolay imperiyanı iflasdan xilas etmək məqsədilə bəzi demoktarik islahatları və Dövlət dumasının çağırılması haqqında manifest imzaladı.

Şimalı Azərbaycanda inqilabi hərəkatın başlanmasınıın xüsusiyyəti onun erməni-müsəlman qırğınları ilə müşaiyyət olunması idi. Bu qırğınların baş verməsində çar hökuməti maraqlı olsa da, onların əsas səbəbkarı erməni millətçi partiyaları və terrorist təşkilatları olmuşdur. Həmin dövrdə Şimali Azərbaycanda fəaliyyət göstərən müxtəlif istiqamətli erməni partiyalarından ən böyüyü qatı millətçi "Daşnaksutyun" partiyası idi. "Böyük Ermənistan" xülyasını proqramının əsas ideyası edən bu partiyanın təşkilatları Bakı, Gəncə, Şuşa və b. şəhərlərdə fəaliyyət göstərirdi.

1905-ci il fevralın 6-sı şəhərin mərkəzində erməni mauzerçilərinin Sabunçu kəndinin sakinini qətlə yetirməsi o çağadək görünməmiş qanlı erməni-azərbaycanlı toqquşmalarına təkan verən detonator rolunu oynadı. 1905-ci ilin fevralın 6-dan 9-na kimi Bakıda qarşılıqlı atışmada senator Kuzminskinin məlumatlarına əsasən 262, M.S. Ordubadinin bilgilərinə görə isə minə yaxın insan öldürülmüşdü.

Qanlı qırğınlar Bakı və Abşeronla məhdudlaşmadı, bütün Azərbaycan ərazisini bürüdü, ermənilər Naxçıvan və İrəvanda da qırğınlar törətdilər. Azərbaycanlı əhali onların cavabını verməyə müvəffəq oldu. Naxçıvan qırğınlarının şahidi olmuş böyük Azərbaycan maarifpərvəri Mir Möhsün Nəvvabın yazdığına görə, “müsəlmanlar tezliklə səfərbər olub tüfəngi olan tüfəngini, tapançası olan tapançasını, olmayanlar isə xəncər, külüng, balta, dəhrə və ağac götürüb, ermənilərin müqabilinə gəldilər və onların tüfəng və patrondaşlarını əllərindən alıb davaya başladılar. Hər tərəfdə

ermənilər böyük tələfata məruz qaldılar və vəziyyəti belə görüb üz qoydular qaçmağa”[1].

1905-ci il mayın 24-də İrəvanda səhər saatlarında bazar-dükanı açmağa gedən müsəlmanlara ermənilər atəş açdılar. M.S.Ordubadi hadisələrin şahidi olmuş Mir Abbas Mir Bağırzadənin topladığı faktlara əsaslanaraq, yazır: “yerdə durub səmaya nəzər salan bir insan göydən alovlu güllə yağır söyləsə idi, əsla xəta eləməzdi, zənnindəyəm. Bu vaxt İrəvanda lazımlı-lazımsız 20 tüfəng, az miqdarda patron var idi. Tüfənglər əksəriyyətlə ovçu tüfəngi olub müsəlmanların Nuh babasından yadigar qalmış bir sıra antikvardan sayılırdı. Bu halda erməni atəşlərinə hökumət tərəfindən əsla maneçilik olmayıb, iğtişaşa dair də bir tədbir edilmədi. Ermənilər ürəkləri istədiyi qədər atəş açır və hücum edirdilər”[2]. Mir Möhsün Nəvvab davam edərək yazırdı ki, yalnız bir neçə saatdan sonra ətrafdan gələn könüllü əsgərlərin yığılıb toplanması ilə İrəvan müsəlmanları mənən və sayca gücləndirilirdi. Əlinə hərbi silah keçən kürd, iranlı və başqa millətdən olan hər kəs də bura yığılmaqda idi. Bəzi yerlərdə sipərlər düzəldilib, sipərlərdən erməni müsəlmanı, müsəlman ermənini görən kimi hədəf edirdi. Bu sipər atışmasında ermənidən çox tələf olurdu. Halbuki, erməni hərbçilərinin əksəri əsgəri xidmətini qurtarmış əsgərlər idi, Daşnaksutyun döyüşçüləri isə ən son zamankı hərbi silahla silahlanmışdılar. Nəhayət hökumət nümayəndələri teleqrafla şeyxülislamı, İrəvan qazisini, eyni zamanda erməni katalikosunu şəhərə dəvət etdi. Onlar da mayın 31-də şəhərə təşrif gəlib, Abbasqulu xan İrəvanskinin evində dayandılar[3]. İyunun 1-də şeyxülislam və katalikos camaata sülh çağırışı edəndən sonra müvəqqəti sülh yarandı. Lakin kiçik fasilədən sonra İrəvanda ermənilərin komitələri tərəfindən müsəlman kəndlərinə hücum etmək əmri verildi. İyunun sonlarında 10 minə qədər könüllü erməni əsgəri beş yüz evli Başkeni adlı erməni kəndindən hücum edib Güllücə kəndinə güllə yağdırırdılar. Bir azdan Şoragöl, Pənbək, Aleksandropol erməniləri yığışıb Uşu adlı müsəlman kəndinə hücuma keçdilər. Hadisə şahidlərinin sözlərinə görə, müsəlmanlar bu müharibədə xəncərlə, ermənilər tüfənglə vuruşurdular. Yalnız iyun ayı ərzində Təkyə, Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu, Əngirsək kəndləri, Eçmiədzində 9 məşhur müsəlman kəndi dağıdıldı, hökumət isə heç bir tədbir görmədi[4].

1905-ci ilin iyununda Cəbrayıl və Qaryagin qəzalarında Veysəlli, Divanəli kəndlərini dağıtdılar. Qacar kəndində əməlli-başlı döyüşlər gedirdi. Bu kəndi mühasirəyə almaq daşnaklar tərəfindən Saqo adlı Zəngəzur komandanına tapşırılmışdı. Kənddə olan azərbaycanlı könüllülər kəndin üç tərəfində səngərlər

[1] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993, s.16-17
[2] Məmməd Səid Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 2007, s.22.
[3] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası., s.15
[4] Ordubadi M.S. Qanlı illər., s.29

qazıb ermənilərə müqavimət göstərdilər. Arvad-uşaqlar da evdə davam gətirə bilməyib səngərlərə pənah gətirmişdilər. Altı saat qızğın döyüşlərdən sonra kəndin müdafiə sədlərindən kənar olan 55 ev qarət edilib yandırıldı, müsəlmanlara mal zərəri 90 minə qədər olub, can tələfatı isə 12 nəfər olmuşdur. Müsəlmanlar yaylağa köçdüklərinə görə iki qışlaq dağılmışdır[5].

Avqust ayında qırğınların yenidən alovlanaması çar məmurlarını, başda canişin qraf İ.İ.Voronsov-Daşkov olmaqla Tiflisdə erməni-Azərbaycan barışıq qurultayının çağırılmasını məcbur etdi. Qurultay Qafqaz canişini yanında hər iki millətin fəxri vətəndaşlarından ibarət barışıq komissiyalarının yaradılmasına qərar verdi, lakin öz nümayəndələrini göndərməkdən imtina edən ermənilərin təqsiri üzündən komissiyalar yaradılmadı və qanlı hadisələr 1906-cı ilin ikinci yarısına qədər davam etdi. “Diyarı sakitləşdirmək” üçün Şuşa və Zəngəzur qəzalarına general V.N. Qoloşapovun komandanlığı altında qoşun dəstəsinin göndərilməsi və açıq şəkildə erməniləri dəstəkləməsi hadisələri daha da gərginləşdirdi. Qoloşapovun Şuşadan geri çağırılması barədə canişin qarşısında vəsatət qaldıran Azərbaycan nümayəndə heyətinə canişin tərəfindən rədd cavabı veriləndən sonra bəlli oldu ki, dinc yollarla xalqın həyatını qorumaq mümkün olmayacaq. Məhz bundan sonra başda Əhməd bəy Ağaoğlu olmaqla azərbaycanlı ictimai xadimlər döyüş qabiliyyətli “Difai” təşkilatının yaradılmasına qərar verdilər.

17 oktyabr çar manifestinin verilməsi ilə nəticələnən 1905-ci ilin inqilabi hərəkatı cəmiyyətin bütün təbəqələrini hərəkətə gətirdi, yeni siyasi partiyaların və təşkilatların yaranmasına təkan verdi. Hələ 1904-cü ildə ilk milli sosial-demokrat "Hümmət" təşkilatı fəaliyyətə başlamışdı. 1905-ci ildə Azərbaycanın siyasi səhnəsində ilk olaraq federalizm ideyalarını təbliğ edən "Qeyrət" partiyası yaradıldı. 1906-cı ilin avqust-sentyabr aylarında Bakı və Yelizavetpol quberniyalarında Əhməd bəy Ağaoğlunun rəhbərliyi altında "Difai" partiyası meydana çıxdı. Partiyanın proqramında “Daşnaksütyun” tərəfindən törədilən qanunsuzluqların aradan qaldırılması üçün güc tətbiq etməsi ilə yanaşı, maarifi və əhalinin mənafeyinin müdafiəsi zəruri şərt sayılırdı. “Difai”nin həyata keçirdiyi güc aktlarından ən böyüyü 1906-cı ildə Qarabağdakı dinc Azərbaycan əhalisinin qətliamında əlləri olan general Qoloşapova edilən qəsd və onun dəftərxanasının müdiri Kleşinskinin öldürülməsi olmuşdu. 1907-ci ilin mayında “Müdafiə” təşkilatı meydana çıxdı. Partiyanın sədri hərbi topoqraf, podpolkovnik İ.Vəkilov seçilmişdi. Partiya fəaliyyətinin əsas istiqaməti kimi müsəlmanlar arasında ictimai birliklərin yaradılmasını və onların təhsilinə və mədəniyyətinə qayğı göstərilməsini elan edirdi.

Azərbaycan xalqının siyasi cəhətdən birləşməsində 1911-ci ildə siyasi meydana çıxan Müsəlman Demokratik Müsavat ("Bərabərlik") partiyası mühüm rol oynadı.

---

[5] Yenə orada, s.42.

1917-ci il Fevral inqilabına qədər “Müsavat” gizli fəaliyyət göstərirdi. 1912-ci ildə partiyanın manifesti - proqramı nəşr edildi. 1913-cü ildə İstanbuldan Bakıya qayıdan M.Ə.Rəsulzadə həmin vaxtdan etibarən "Müsavat" partiyasının şəriksiz liderinə çevrildi.

1905-ci ilin yazı və yayında Azərbaycan nümayəndələri Rusiya müsəlman ziyalılarını birləşdirən "Ümumrusiya müsəlman ittifaqı"nın ("İttifaqi-müslimin"in), və ya Müsəlman Konstitusion partiyasının yaradılmasında fəal iştirak etmişdilər. Ə.Topçubaşov bu təşkilatın 1905-ci ilin avqustunda Nijni Novqorodda I (təsis) qurultayının çağırılmasında, 1906-cı ildə II qurultayında proqram və nizamnaməsinin müəllifi olmuşdur. Proqramda ümumrusiya dövlət quruluşu kimi konstitusiyalı parlament monarxiyasının dəstəklənməsi ilə yanaşı, Rusiya müsəlmanlarının tələbləri də öz əksini tapmışdı. "İttifaqi-müslimin" Rusiya müsəlmanları siyasi qüvvələrinin Rusiya dövlət dumalarının bütün çağırışlarında Müsəlman parlament fraksiyasının fəaliyyətində özünü göstərmiş birliyin bünövrəsini qoymuşdu.

1906-cı ilin aprelindən fəaliyyətə başlayan Rusiya Dövlət Dumasında Azərbaycanın ən görkəmli ictimai xadimləri təmsil olunmuşdu. Azərbaycanı birinci Dumada 5 deputat: Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhman bəy Haqverdiyev, Məhəmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, 1907-ci ildə fəaliyyətə başlayan ikinci Dümada 6 deputat: Fətəli xan Xoyski, İsmayıl Tağıyev, Məmməd ağa Şahtaxtinski, Xəlil bəy Xasməmmədov, Zeynal Zeynalov, Mahmud Mahmudov, üçüncü Dumada 1907-ci il iyunun 3-də seçkilər haqqında yeni mürtəce qanun qəbul edildikdən sonra Xəlil bəy Xasməmmədov, 1912-ci ildə növbəti seçkilərdən sonra işinə başlamış dördüncü Dumada isə Məmməd Yusif Cəfərov təmsil edirdilər. Azərbaycanlı deputatlar dumadakı Müsəlman fraksiyasıyasına daxil olmuş, xalqın ən aktual tələblərini parlament tribunasından səsləndirmişdirlər.

### *Şimali Azərbaycan Birinci dünya müharibəsi illərində*

28 iyun 1914 ildə Sarayevoda Avstriya-Macarıstan imperiyasının vəliəhdi Frans-Ferdinandın qətlə yetirilməsi bəşəriyyət tarixində öz miqyası və qurbanlarına görə misli görünməmiş Birinci dünya müharibəsinin başlanğıcına səbəb oldu. Qlobal xarakter almış müharibə 38 ölkəni cəlb edərək dünya müharibəsinə çevrildi.

Qafqaz, ilk növbədə isə neft Azərbaycanı da Almaniyanın müdaxilə planlarına daxil idi. Bu planların həyata keçirilməsində Almaniyanın hərbi müttəfiqi olmuş Osmanlı imperiyasına mühüm yer verilirdi. Osmanlı dövləti Rusiya ilə müharibədə Cənubi Qafqaz və Dağıstandakı müsəlman xalqlarının köməyinə ümid bəsləyirdi.

1914-cü il dekabrın 9-dan 1915-ci il yanvarın 5-dək Sarıqamış istiqamətində 9-cu türk korpusu ruslara hücum etdi, lakin tezliklə rus ordusunun başladığı əks

hücum, habelə ağır hava şəraiti nəticəsində türk korpusu darmadağın edildi. Döyüşün nəticəsində ruslar irəliləyərək Təbrizi tutdu və bütün türk qoşunlarını Cənubi Qafqazdan çıxardı.

Birinci Dünya müharibəsi cəbhələrində 200 nəfərədək azərbaycanlı zabit vuruşurdu. Məşhur generallar Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski də cəbhədə idilər. Hüseyn xan Naxçıvanskinin komandirlik etdiyi "Qafqaz yadelli süvari diviziyası" və ya "Vəhşi diviziya" ən iri müsəlman hərbi birləşməsi idi.

Azərbaycanlıların bir hissəsi də öz vətənpərvərlik borcunu Osmanlı ordusunda xidmət etməkdə görürdü. Onlardan biri də Azərbaycanın görkəmli şairi Əhməd Cavad idi. Hələ 1912-ci ildə, Balkan savaşları başlanan dövrdə Əhməd Cavad da əqidə dostları İdris Axundzadə, İsa Əlizadə, Əli Əsədulla və həmçinin klassik ədib və şair pedaqoq Abdulla Şaiqlə birlikdə könüllü əsgər kimi İstanbulda qurulan “Qafqaz könüllü hissəsi” sıralarına qatılır. Trakiya cəbhəsində türk qardaşları ilə çiyin-çiyinə vuruşur.

Müharibənin elə ilk günlərindən Dövlət Dumasının Azərbaycanlı nümayəndəsi M.Y.Cəfərov müsəlman fraksiyasının üzvləri adından müharibəni "azadlıq müharibəsi” adlandırmaqla yanaşı qeyd edirdi ki, "bir şey ki, rus ordusu xaricdəki xalqlara azadlıq gətirir, onda elə bu azadlıq Rusiya imperiyasının tərkibinə daxil olan çoxsaylı xalqlara da mütləq bəyan edilməlidir". M.Ə.Rəsulzadə də o dövrdə nəşr etdiyi "Açıq söz" qəzetində yazırdı ki, bu müharibə əzilən ölkələrin müstəqilliyini möhkəmləndirəcək sülhlə bitməlidir, əks halda, bu sülh uzun çəkməyəcək.

1917-ci ilin başlanğıcında müharibənin doğurduğu iqtisadi və siyasi böhran, sol partiyaların apardığı təşviqat nəticəsində ordunun dağılmaq həddində olması, günü-gündən artan sosial narazılıq, Rusiyanın digər regionlarında olduğu kimi, Azərbaycanda da təsirsiz ötüşməmişdir.

1917-ci il Fevral inqilabı 300 illik Romanovlar imperiyasına son qoydu və Rusiyada ilk dəfə olaraq demokratik dəyərləri və idarəetmə üsullarını elan etdi. Bu, həm də Azərbaycanın bir hissəsi olduğu Qafqaz regionuna böyük təsir göstərmiş, bütün hakimiyyət strukturlarını kökündən dəyişdirmiş, ictimai-siyasi və milli hərəkata yeni təkan vermişdi.